1_Layout 1 29.09.2017 12:22 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 19 (510)
30 sentyabr
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT İLHAM ƏLİYEV BMT-nin BAŞ ASSAMBLEYASININ 72-ci SESSİYASININ AÇILIŞINDA ÇIXIŞ EDİB

***Sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.***

**AZƏRTAC-ın** məlumatına görə, Azərbaycan Prezidenti İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycan torpaqlarının 20 faizi 25 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır.

Dövlət başçısı bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın qədim və tarixi torpaqlarıdır: "Ermənistanın işğalı nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər rayonlarında Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib. Ermənistan azərbaycanlılara qarşı Xocalı faciəsi törədib. Bu faciə dünyanın 20-dən artıq ölkəsi tərəfindən rəsmən tanınıb. 1992-ci ilin 26 fevralında Ermənistan 613 Xocalı sakinini qətlə yetirib. Onların arasında 106 qadın və 63 uşaq var. Bu cinayəti törədənlərdən biri də Ermənistanın hazırkı prezidentidir. Aparıcı beynəlxalq təşkilatlar Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmasını tələb edən qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurasının da 4 qətnaməsi var. Lakin Ermənistan qətnamələri yerinə yetirmir, 24 ildir ki, qətnamələrə əhəmiyyət vermir və cəzalandırılmır. Bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün içində icra olunur. Bizim vəziyyətimizdə isə 24 ildir, icra olunmur. Bu, ikili standartdır və qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiya tətbiq olunmalıdır. BMT-də aparılmalı olan islahatlardan biri də Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmləri ilə bağlı olmalıdır. Ermənistan "status-kvo"nun dəyişməməsi üçün hər şey edir. Substantiv danışıqları bloklayır. ATƏT-in Minsk Qrupunun həmsədrləri dəfələrlə bəyan edib ki, "status-kvo" qəbuledilməzdir".



Prezident diqqətə çatdırıb ki, təcavüzkara qarşı beynəlxalq təzyiq yoxdur, Ermənistan diktatorluğuna qarşı sanksiyalar tətbiq olunmur, bu dayandırılmalıdır: "Ötən ilin aprelində Ermənistan daha bir cinayət törədib. Nəticədə Azərbaycanın 6 dinc sakini öldürülüb, cavab hücumu ilə Azərbaycan Ordusu işğal olunmuş ərazilərin bir hissəsini azad edib və bayrağını həmin ərazilərdə ucaldıb. Ermənistan rəhbərliyi bu dərsi unutmamalıdır. Əks halda, növbəti təxribatın cavabı daha ağrılı olacaq. Döyüşdə itirən Ermənistan yenidən Azərbaycanın kəndlərinə hücum edib. Bu ilin iyulunda hədəfli hücum nəticəsində Alxanlı kəndinə edilən hücum zamanı 2 nəfər öldürülüb. Bunlar 2 yaşlı Zəhra Quliyeva və onun nənəsidir. Beynəlxalq ictimaiyyət erməni terrorizmini və faşizmini dayandırmalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir. Lakin erməni hərbi təxribatı davam edərsə, Azərbaycan öz əhalisini müdafiə edəcək. Lazım gəlsə, ötən ilin aprelində olduğu kimi, Ermənistan yenə cəzalandırılacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsipləri əsasında həll olunmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".

Prezident çıxışında deyib ki, Azərbaycan qlobal enerji bazarında vacib rol oynayır. Ölkəmiz neft və qazın beynəlxalq bazara tədarükündə etibarlı tərəfdaş kimi dünyanın bir çox ölkəsi üçün enerji təhlükəsizliyini təmin edir.

Dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə birgə "Cənub Qaz Dəhlizi" layihəsinin yekunlaşmasına çox yaxındır: "40 milyard dollardan artıq investisiyaya malik "Cənub Qaz Dəhlizi" dünyanın ən böyük infrastruktur layihələrindən biridir. Bizim üçün digər prioritetlərdən biri də nəqliyyatdır. Avropa ilə Asiyanın arasında yerləşən Azərbaycan özünün coğrafi mövqeyindən istifadə edərək, Avrasiyada böyük nəqliyyat mərkəzlərindən birinə çevrilmək niyyətindədir. Azərbaycan Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinə maliyyə ayırır. Ölkəmizdən keçən bu dəhlizlər hər iki istiqamətdə ən qısa yol olacaq".

Prezident vurğulayıb ki, Azərbaycan sosial və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə edib. 2004-cü ildən bu yana Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox inkişaf edib, 1 milyon 600 min iş yeri yaradılıb. Ölkədə işsizliyin səviyyəsi 5-6 faizdir ki, bu da dünyada ən aşağı işsizlik göstəricilərindəndir.

Dövlət başçısının sözlərinə görə, əsas prioritetlərdən biri yoxsulluğun aşağı salınması olub: "2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən yuxarı idi. İndi isə bu rəqəm 5-6 faizdir. Davos forumuna bağlı Beynəlxalq rəqabətlilik hesabatında Azərbaycan 2016-2017-ci illərdə 136 ölkə arasında 37-ci yeri tutub".

Prezident qeyd edib ki, Azərbaycan BMT-nin aktiv üzvüdür: "2012-2013-cü illər üçün Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. 25 illik tarixi olan bir ölkə üçün bu, böyük uğur idi. Üzv ölkələrin böyük əksəriyyəti Azərbaycana və onun siyasətinə dəstək göstərdi".

Azərbaycanın stabil, modern, demokratik ölkə olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, demokratiyanın inkişafı, insan haqlarının müdafiəsi hökumətimizin əsas prioritetləri sırasındadır: "Azərbaycanda fikir, söz, sərbəst toplaşma və dini azadlıqlar da daxil olmaqla bütün fundamental azadlıqlar tam təmin edilir. Azərbaycan dünya tərəfindən multikulturalizmin mərkəzi kimi tanınmış ölkələrdən biridir. Bu, Azərbaycanın dövlət siyasətidir. Bütün etnik və dini qrupların nümayəndələri Azərbaycanda sülh və harmoniya şəklində yaşayır. 2016-cı il Azərbaycanda Multikulturalizm, 2017-ci il isə İslam həmrəyliyi ili elan olunub".

Qeyd olunub ki, milli azlıqların yaşamadığı Ermənistandan fərqli olaraq, Azərbaycan multietnik ölkədir. Ermənistanda islamofobiya pik həddə çatıb. Bu ölkə vandalizm aktları həyata keçirərək, işğal olunmuş Azərbaycan ərazilərindəki bütün məscidlərimizi dağıdıb.

Azərbaycan Respublikasının Prezidenti əlavə edib ki, ölkəmiz dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirlərə evsahibliyi etmişdir: "Onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu, Dünya Dini Liderlər Forumunu, dörd dəfə keçirilmiş Mədəniyyətlərarası Dialoq və beş dəfə keçirilmiş Bakı Beynəlxalq Humanitar forumlarını və digər mühüm tədbirləri qeyd etmək olar.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verdi. "Bakı Prosesi"nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir".

Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycanın son illərdə əldə etdiyi idman uğurlarından da danışıb: "2015-ci ildə Azərbaycan birinci Avropa Oyunlarına ev sahibliyi etdi. 50 ölkədən gəlmiş 6000 atlet həmin Oyunlarda iştirak etdi. 2017-ci ildə Azərbaycan 54 ölkəni təmsil edən təxminən 3000 idmançının iştirakı ilə dördüncü İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi.

İki il ərzində paytaxtımız Bakıda Avropa və İslam Oyunları keçirildi. Bu, həmçinin multikulturalizmin təşviq edilməsinə böyük töhfə oldu. Azərbaycan yığması birinci Avropa Oyunlarında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında isə birinci yeri tutdu. Bu, göstərir ki, Azərbaycan dünyanın aparıcı idman ölkələrindən biridir. İdman nailiyyətlərimizin digər sübutu Azərbaycanın "Rio 2016" Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yeri tutması oldu. Bütövlükdə, Azərbaycan 18 medal qazandı.

Ötən il müstəqilliyimizin bərpasının 25-ci ildönümünün qeyd edildiyini bildirən dövlətimizin başçısı çıxışının sonunda diqqətə çatdırıb ki, Azərbaycanın uğurlu inkişafı bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq".

Baş Assambleyanın sədri Miroslav Layçak Azərbaycan Respublikasının Prezidentinə çıxışına görə Baş Assambleya adından təşəkkürünü bildirib.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti üzrə Baş İdarəsinin rəisi polis general-leytenantı Sergey Umnovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.***

Sentyabrın 19-da Sergey Umnov və onu müşayiət edən şəxslər əvvəlcə Fəxri xiyabana gedərək xalqımızın Milli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üstünə tər çiçəklər düzülüb.

Daxili İşlər Naziri R.Usubov polis general-leytenantı S.Umnovu qəbul edib. Qonağı salamlayan nazir Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri - cənab İlham Əliyev və cənab Vladimir Putinin siyasi iradələrinə uyğun olaraq, son illər qarşılıqlı səfərlər, keçirilən yüksək səviyyəli görüşlər, aparılan danışıqlar nəticəsində ölkələrimiz arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdiyini məmnunluqla qeyd edib. Bu kontekstdə Rusiya Federasiyasının Daxili İşlər Naziri Vladimir Kolokoltsevin başçılıq etdiyi nümayəndə heyətinin ötən ilin dekabr ayının əvvəllərində Bakıya rəsmi səfəri, 2017-2019-cu illərdə daxili işlər nazirlikləri arasında qarşılıqlı yardım haqqında Protokolun imzalanması, müxtəlif istiqamətlərdə, o cümlədən, cinayətlərin açılması, axtarışda olanların tutulması, onların ekstradisiyası, sərhədyanı regionlarda birgə razılaşdırılmış tədbirlərin təşkili diqqətə çatdırılıb.



Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi, o cümlədən Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti üzrə Baş İdarə ilə əlaqələrin daha da möhkəmləndirilməsinə, xüsusən kadr hazırlığı, məlumat və təcrübə mübadiləsinə ciddi diqqət yetirildiyini bildirən nazir əməliyyat-xidməti fəaliyyətin əsas istiqamətləri üzrə əməkdaşlığın genişlənməsində Azərbaycan tərəfinin qərarlı olduğunu, bu səfərin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inandığını bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə Daxili İşlər Nazirinə təşəkkür edən polis general-leytenantı S.Umnov əməkdaşlığın dərinləşdirilməsində rəhbərlik etdiyi qurumun da maraqlı olduğunu vurğulayıb, səfərinin bu məqsədə xidmət edəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də ətraflı müzakirə edilib.

Səfər çərvəsində rusiyalı qonaqlar Daxili İşlər Nazirliyinin "102-Zəng Mərkəzi" və "Təhlükəsiz şəhər" xidmətlərinə, həmçinin Əlahiddə Çevik Polis Alayına gedərək həmin qurumların işi və fəaliyyət istiqamətləri ilə yaxından tanış olublar.

2_Layout 1 29.09.2017 12:40 Page 1



# ŞƏXSİ HEYƏTƏ VƏTƏNƏ MƏHƏBBƏT, DÜŞMƏNƏ NİFRƏT HİSSLƏRİ AŞILANIR

16073 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstədir.

Dəstənin şəxsi heyətinin əsas fəaliyyəti regionda polis əməkdaşları ilə birgə ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarıb tutulması və zərərsizləşdirilməsidir.



Davamlı olaraq həyata keçirilən təlimlər zamanı hərbi qulluqçular tədris proqramının mənimsənilməsinə səylə çalışırlar. Dəstənin daim döyüşə hazırlığının qorunub saxlanılmasında təlimlə yanaşı, keyfiyyətli tərbiyə işinin də rolu böyükdür. Bu baxımdan dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşən Məmmədovun fəaliyyəti danılmazdır.

Mayor E.Məmmədov 1973-cü il noyabr ayının 5-də Bakı şəhərində anadan olub. Orta təhsilini tamamladıqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. 1991-ci ildən Daxili Qoşunların 7535 saylı hərbi hissəsində (hazırda həmin hərbi hissə Ədliyyə Nazirliyinin tərkibindədir - X.H.) xidmət edib. 1995-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların Baş İdarəsinin idman bölüyündə məşqçi kimi fəaliyyət göstərib. 1996-1998-ci illərdə idman bölüyünün başçavuşu olub.

1993-1998-ci illərdə Bədən Tərbiyəsi və İdman Akademiyasının "Sərbəst güləş" fakültəsində ali təhsil alıb. Özü 13 il idmanın sərbəst güləş növü ilə məşğul olub. Hərbi qulluqçumuzun nailiyyətləri onun bu sahədə peşəkar olduğunu deməyə əsas verir. Belə ki, 1989-cu ildə gənclər arasında SSRİ birinciliyi uğrunda Tatarıstanın Kazan şəhərində keçirilən yarışda ikinci yerə layiq görülüb. 1992-ci ildə İranda beynəlxalq turnirin qalibi olub. 1993-cü ildə isə Azərbaycan çempionu adını qazanıb.



25 ildən artıqdır ki, Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçumuz 1998-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində dörd aylıq zabit və gizirlərin təkmilləşdirmə kursunu keçib. Elə həmin ildə 25031 saylı hərbi hissənin komendant bölüyündə taqım komandiri vəzifəsinə təyin edilib. 1999-cu ildə ilk zabit - "leytenant" hərbi rütbəsinə layiq görülüb. 2001-ci ildə 25035 saylı hərbi hissənin (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi - X.H.) kiçik komandirlər hazırlayan tədris bölüyündə taqım komandiri, bölük komandirinin müavini vəzifələrində xidmət edib. 2003-2009-cu illərdə hərbi xidmətini 16075 saylı hərbi hissədə davam etdirib. Burada qərargah rəisinin xidmət üzrə köməkçisi, bölük komandiri, qərargah rəisinin döyüş təlimi üzrə müavini vəzifələrində fəaliyyət göstərib.

2008-ci ildə Çin Xalq Respublikasında qərargahın idarə edilməsi üzrə bir illik kursda olub. Kursun yekununda "BMT-nin sülhməramlı qüvvələrinin tarixi və inkişafı" mövzusunda diplom işi müdafiə edib və birinci yerə layiq görülüb.

2009-cu ildə Daxili Qoşunların Baş İdarəsində Qərargahın kəşfiyyat şöbəsinin əməliyyat kəşfiyyatı bölməsində zabit vəzifəsinə təyin olunub. 2010-cu ilin may ayında Türkiyədə bir aylıq kəşfiyyat kursunu bitirib.

2013-cü ildən 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmətini davam etdirir. "Silahlı Qüvvələrin veteranı" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Mayor E.Məmmədovla söhbət edərkən bildirdi ki, hərbi hissədə tərbiyə işi şəxsi heyətin Vətənə məhəbbət, Azərbaycan Respublikasının qanunlarına, hərbi andın, hərbi nizamnamələrin və əmrlərin tələblərinə sözsüz əməl etmək və rəislərə hörmət ruhunda aparılır. Həmçinin hərbi qulluqçulara Vətənimizin düşmənlərinə nifrət və nəyin bahasına olursa-olsun, torpağı müdafiə etməyə hazır olmaq hissləri aşılanır. Bu məqsədlə müxtəlif mövzularda ictimai-siyasi hazırlıq məşğələləri, həmçinin həftənin 2-ci və 4-cü günləri tərbiyə işi saatları keçirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının artırılması, qarşıya çıxan tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmaları diqqət mərkəzində saxlanılır.

Mayor E.Məmmədov ictimai-siyasi hazırlıq məşğələlərindən əlavə, xüsusi taktiki hazırlıq, hərbi topoqrafiya, hərbi dağçılıq, atəş və fiziki hazırlıq məşğələlərinin keçirilməsinə də nəzarət olunduğunu söylədi. Məşğələlər zamanı fəallıqları ilə seçilən hərbi qulluqçulardan baş çavuş Məhəmməd Şəmiyevin, çavuşlar Araz Hüseynov, Əvəz Əliyev, Toğrul Ağayev və kiçik çavuş Elçin Məcidovun adlarını çəkməyi unutmadı.

**baş leytenant**
**X.Hacızadə**

# HƏRBİ XİDMƏT MÜSBƏT KEYFİYYƏTLƏR AŞILAYIR

*(əvvəli ötən sayımızda)*

**Baş əsgər Əli Ağayev** 1998-ci ildə Cəlilabad rayonunda anadan olub. Orta təhsillidir. Əsgərliyə qədər idmanın sərbəst güləş növü ilə məşğul olub, rayon yarışlarında yaxşı nəticələr göstərib. O, 2016-cı ilin aprel ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə baş atıcı-pulemyotçudur. Döyüş və mənəvi-psixoloji hazırlığında müsbət cəhətdən fərqlənir. "Əlaçı" və II dərəcəli "İdmançı əsgər" döş nişanları ilə təltif olunub. Hərbi hissə, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb. Baş əsgər olmasından qürur duyan Əli qarovul xidmətində ayıq-sayıqdır. Onunla söhbət zamanı "Bizi döyüş qabiliyyətli və cəsarətli əsgərlər kimi yetişdirən komandirlərimizə minnətdaram" - dedi.

**Baş əsgər Uğur Həsənov** 1998-ci ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olub. Orta təhsillidir. Hərbi xidmətə qədər idmanın kinq-boksinq növü ilə məşğul olub, zona yarışlarında qalib olmağı bacarıb. 2016-cı ilin aprel ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə baş atıcı-pulemyotçudur. Onun da təlimdə əldə etdiyi nəticələr təqdirəlayiqdir. "Əlaçı" və II dərəcəli "İdmançı əsgər" döş nişanları ilə təltif edilib. Hərbi hissə, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb. Özünə qarşı tələbkardır. Söhbət zamanı "Hərbi xidmət hər bir əsgər üçün bir həyat məktəbidir" - dedi. Uğur qarovul xidmətində öz vəzifələrini düzgün və vicdanla yerinə yetirir.

**Baş əsgər Musa Süleymanov** 1998-ci ildə Salyan rayonunun Şikarlı kəndində anadan olub. Orta təhsillidir. O da idmanın kinq-boksinq növünə maraq göstərir. Hərbi xidmətə qədər zona yarışlarında qalib yerləri tutub. 2016-cı ilin oktyabr ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə baş atıcı-pulemyotçudur. Qarovul xidmətində nümunəvi cəhətdən fərqlənir. Musa bu xidmət zamanı qarovulun fəallarından biri kimi də vəzifələrini bacarıqla yerinə yetirir. O, hərbi hissə, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb. Söhbət zamanı "Daxili Qoşunların əsgəri olmağımla fəxr edirəm"- dedi, "Gələcək üçün arzum isə Azərbaycanın idman şərəfini ucaltmaqdır"- Musa xüsusi vurğuladı.



**Baş əsgər Kamran Rzayev** 1998-ci ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olub. 2016-cı ilin oktyabr ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə baş atıcı-pulemyotçudur. Təlim-tərbiyəsi baxımından öz əsgər yoldaşlarına nümunədir. Hərbi hissədə keçirilmiş inspeksiya yoxlamasında "əla" qiymət alıb. Qarovul xidmətində müsbət xarakterizə olunur. Hərbi hissə komandiri, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb. Söhbət zamanı "Bizə göstərilən diqqət və qayğı hər birimizi ruhlandırır. Çalışırıq komandirlərimizin etimadını doğruldaq"- dedi.

**Əsgər Orxan Əlizadə** 1997-ci ildə Beyləqan rayonunda anadan olub. 2016-cı ilin iyul ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə yazardır. Ona həvalə olunan vəzifənin icrasında məsuliyyətlidir. Döyüş və mənəvi-psixoloji hazırlığında çalışqandır. Hərbi hissədə keçirilmiş inspeksiya yoxlamasında "yaxşı" qiymət alıb. II dərəcəli "İdmançı əsgər" döş nişanı ilə təltif edilib. Hərbi hissə və bölük komandiri tərəfindən mükafatlandırılıb.

***Bir hərbi hissənin timsalında belə, Daxili Qoşunların sıralarında vətənpərvər, yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı çavuş və əs-gərlərin xidmət etdiyini görmək olar. İnanıram ki, bu hərbi qulluqçular Vətənimiz və dövlətçiliyimiz naminə hər bir sınağa hazırdırlar.***

**Yalçın Abbasov**

# HƏRBİ XİDMƏTDƏ İCTİMAİ İŞ FAKTORU - *AKTUAL MƏQAMLAR...*

Daxili Qoşunların şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, nizam-intizamının, hərbi qulluqçuların yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsi, onların hüquq və mənafelərinin qorunması, sosial-məişət problemlərinin həllində köməklik göstərilməsi, hərbi ənənələrə hörmət əqidəsinin aşılanmasında Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrimizdə fəaliyyət göstərən ictimai təşkilatların öz töhfəsi var. Bu ictimai təşkilatlar zabit yığıncaqları, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və çavuşlar şuraları, əsgərlərin hərbi kollektiv şuraları, qadın hərbi qulluqçuların şuralarıdır. Bununla yanaşı, baş zabitlər və kiçik zabitlərin, habelə gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının şərəf məhkəmələri ictimai təşkilat statusuna malikdirlər. Həmçinin Daxili Qoşunların tərkibində veteranlarımızın üzv olduğu Veteranlar Şurası da fəaliyyət göstərir. Qeyd etdiyim bu ictimai təşkilatların Daxili Qoşunlarda yaradılmasının rəsmiləşdirilməsi 2001-2005-ci illərə təsadüf edir. Həmin illərdə bu təşkilatların əsasnamələri Daxili İşlər Naziri və Daxili Qoşunların Komandanının müvafiq əmrləri ilə təsdiqlənib. Ötən dövrdə qeyd olunan ictimai təşkilatların fəaliyyəti təkmilləşdirilib, praktiki təcrübəsi artıb, hərbi kollektivlərdə tərbiyə işi prosesində onların rolu azalmayıb. Hərbi qulluqçuların ictimai təşkilatlanması və birliyinin qorunub saxlanması baxımından da bu təşkilatların yerinə yetirdiyi vəzifələr aktuallıq kəsb edir.

Daxili Qoşunların tərkibində bu ictimai təşkilatların yaradılmasına başlanarkən belə fikirlər səslənirdi ki, onlar yeni dövrün reallıqları ilə nə dərəcədə uzlaşacaq? Sovet dövründə ordu daxilində mövcud olmuş belə ictimai təşkilatların fəaliyyətində ideoloji tələblər mühüm əhəmiyyət kəsb edirdi. İctimai təşkilatlar ordu sıralarında hərbi-vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi və nizam-intizamın möhkəmləndirilməsində komandir və rəis heyətinə böyük köməklik göstərirdilər. Hərbi hissə komandanlıqları o təşkilatların rəyi ilə hesablaşırdılar, təklif və müraciətlərini nəzərə alırdılar.

Əlbəttə, bu gün ideoloji kriteriyalar, tərbiyə işinin məzmunu tamamilə fərqlidir. Cəmiyyətdə yeni ictimai təsisatlar da formalaşıb. Bununla belə, yeni dövrdə də ideologiya, hərbi-vətənpərvərlik tərbiyəsi, ictimai iş istənilən cəmiyyətin mənəvi cəhətdən formalaşması və püxtələşməsi, dövlətçilik təfəkkürünün aşılanmasında, milli dəyərlər və ənənələrin qorunub saxlanmasında həlledici rol oynayır. Ona görə də bu istiqamətlərdə məqsədyönlü iş hərbi xidmət sahəsində də davamlı olaraq aparılmalıdır.

Bu gün Daxili Qoşunlarda fəaliyyət göstərən ictimai təşkilatlar sırf hərbi xidmətin məqsəd və məramına bağlı olmaqla, şəxsi heyətin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə yönəlik ictimai funksiya daşımaqla, öz mövcudluğunu doğruldurlar. Ancaq onu da vurğulamaq lazımdır ki, bəzi hallarda ayrı-ayrı ictimai təşkilatların işində passivlik müşahidə olunur. Bir sıra ictimai təşkilatların üzvləri öz vəzifələrini formal olaraq yerinə yetirirlər, müvafiq sənədləri vaxtlı-vaxtında yazıb fəaliyyət görüntüsü yaradırlar. Halbuki, onlar ictimai iş həvalə edilən hərbi qulluqçular kimi fəal mövqe tutmalı, şəxsi heyətin mənafeyinə cavab verən təşəbbüslər irəli sürməlidirlər. Bu baxımdan həm hərbi hissə komandanlıqları tərəfindən ictimai təşkilatların işinə lazımi şəraitin yaradılması, həm də ictimai təşkilatlara bu işə uyğun gələn, həvəs göstərən, hərbi kollektivdə hörməti olan hərbi qulluqçuların seçilməsi vacibdir. Hansısa ictimai təşkilatın öz işini qura bilməməsi o təşkilatın lazımsız olduğu qənaətini yaratmır. Praktika göstərir ki, ictimai təşkilat üzvlərinin bacarıqlı işi, fəallığı, təşkilatçılığı öz bəhrəsini verir.

Hərbi kollektivdə aparıcı qüvvə zabitlərdir. Onların ictimai təşkilatı olan zabit yığıncaqlarında müzakirə olunan bütün məsələlər üzrə sərbəst fikir ifadə olunmasına, problemli məqamların açıq söylənilməsinə imkan verilməlidir. Məhz belə olduqda hərbi hissə komandanlıqları zabit kollektivinin əhval-ruhiyyəsi barədə tam təsəvvürə malik ola bilər. Zabit yığıncaqları maraqlı və gərəkli diskussiyaların aparıldığı tədbirə çevrilməlidir. Bunun səmərəli və konstruktiv məcrada baş verməsinin məsuliyyəti də zabit kollektivinin üzərinə düşür.

Gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının şuraları bu kateqoriya hərbi qulluqçular arasında ictimai maarifləndirmə, müsbət mənəvi keyfiyyətlərin aşılanması, vəzifə borclarına görə məsuliyyət hissinin yüksəldilməsi nöqteyi-nəzərindən önəmli töhfələr verə bilər və verməlidir. Əsas məsələ o deyil ki, hansısa hərbi qulluqçu nöqsanına görə dinlənilsin və tənbeh olunsun. Vacib olanı profilaktikadır, hərbi qulluqçular görməlidirlər ki, onların davranışı diqqət mərkəzindədir, yanlış hərəkətlərinə qınaq şəklində reaksiya olacaq, hərbi kollektivin tələbləri ilə ayaqlaşa bilməyənləri və ya bunu istəməyənləri heç kəs müdafiə etməyəcək.

Bizim sıralarımızda qadın hərbi qulluqçular da xidmət edirlər. Onların daxil olduğu və zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının həyat yoldaşlarının da üzv ola biləcəyi ictimai təşkilat kimi qadınlar şuralarının funksiyası genişdir. Buraya qadın hərbi qulluqçularda və hərbi qulluqçuların ailə üzvlərində yüksək mənəvi və estetik dəyərlərin tərbiyə olunması, hərbi kollektivlərin sosial-mədəni inkişafına köməklik göstərilməsi, qadın hərbi qulluqçuların və digər hərbi qulluqçuların ailə üzvlərinin ehtiyacları və əhval-ruhiyyəsinin öyrənilməsi, onlara lazımi dəstək verilməsi, hərbi kollektivlərin həyatının xüsusiyyətlərindən irəli gələn tapşırıqların izah olunması, hərbi qulluqçuların ailə üzvlərinin mənalı istirahətinin təşkilində iştirak edilməsi və sair məsələlər aiddir. Bəzi istiqamətlər üzrə qadınlar şuralarının işi nəzərəçarpan olsa da, mövcud funksiyaların dolğun həyata keçirilməsinə diqqət artırılmalıdır. Xüsusən qadın hərbi qulluqçuların hərbi xidmətə mənəvi-psixoloji cəhətdən adaptasiyası və üzərlərinə düşən vəzifələrin öhdəsindən gələ bilmələri, ailə vəziyyəti problemlərinin həlli yönündə şuranın dəstəyi vacibdir. Bəzən ailə vəziyyəti problemləri ilə təkbaşına qalan qadın hərbi qulluqçular, eləcə də ümumilikdə ayrı-ayrı zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları depressiya yaşayır, özlərinə qapanır, hətta davranışlarında aqressivlik də ortaya çıxır. Ailə hər bir hərbi qulluqçunun mənəvi dayağıdır. Bu dayağın sarsılmasına yol vermək olmaz.

Hərbi hissələrdə müddətli həqiqi hərbi xidmət çavuşlarının ictimai təşkilatı olan çavuşlar şurasının üzərinə düşən vəzifələr də əhəmiyyətlidir. Belə ki, şura öz fəaliyyətini çavuş heyətinə Daxili Qoşunlarda xidmətə, hərbi peşəsinə görə iftixar, hərbi qulluqçuların şəxsi ləyaqətinə hörmət hisslərinin aşılanmasına, hərbi andın, nizamnamələrin tələblərinə əməl etməkdə şəxsi nümunələrinin təmin olunmasına, tabeliklərində olanların təlim-tərbiyəsinə görə məsuliyyət hissinin artırılmasına və digər məqamlara yönəltməlidir. Çavuşlar şurasında çavuşların hərbi-vətənpərvərlik tərbiyəsi, asudə vaxtının səmərəli təşkili, xidmətdə kiçik komandirlərin rolu müzakirə oluna bilər.

Bu ictimai təşkilatın işini tərbiyə işləri üzrə komandir müavinləri, tərbiyə işləri üzrə bölmələr diqqət mərkəzində saxlamalı, fəal çavuşların ictimai vəzifəsini yerinə yetirməsinə lazımi şərait yaradılmalıdır. Yerlərdə nüfuzlu və bacarıqlı kiçik komandirlərin yetişməsini istəyiriksə, bu prosesdə çavuşlar şurasının da rolu düzgün qiymətləndirilməlidir.

Müddətli həqiqi hərbi xidmət əsgərlərinin ictimai təşkilatı olan hərbi kollektiv şuraları onların ictimai işə cəlb olunması, nizam-intizamının möhkəmləndirilməsi, yoldaşlıq münasibətlərinin qorunub saxlanması, nümunəvi xidmətin təbliğ edilməsi baxımından gərəkli töhfə verməlidirlər. Bu təşkilatın da fəaliyyətinin düzgün təşkili tərbiyəçi zabitlərin nəzarətində olmalı, lakin bu, təşkilat üzvlərinin öz vəzifələrini yerinə yetirməsinə maneçilik törətməməlidir. Təşkilatın əsgərlər arasında etimad qazanması, onların şüuruna, əhval-ruhiyyəsinə təsir göstərə bilməsi komandir heyətinə tərbiyə işində real köməkdir. Ona görə də bölüklərdə ictimai iş fəallarınını seçilməsinə formal yanaşılmamalıdır.

Daxili Qoşunların veteranlarının ictimai təşkilatı olan Veteranlar Şurası uzun illərdir uğurlu fəaliyyət göstərir. Şuranın hərbi-vətənpərvərlik tərbiyəsi işi yönündə keçirdiyi tədbirlərin miqyası ildən-ilə genişlənir, veteranların təşkilatlanması davam etdirilir. Ancaq düşünürəm ki, bu istiqamətdə ictimai iş potensialı böyükdür və hərbi hissələr veteranlarla daha sıx əlaqə qurmalı, onların bilik və təcrübəsindən bəhrələnməlidirlər. Ümumilikdə, heç bir əlamətdar tədbir veteransız keçirilməməlidir. Veteranlar qoşunların ictimaiyyətlə əlaqələrinin inkişaf etdirilməsində də vacib missiyanı yerinə yetirirlər.

Hərbi xidmət sahəsində mühüm funksiya daşıyan ictimai təşkilatlar olaraq şərəf məhkəmələrini qeyd etməliyik. Şərəf məhkəmələri şəxsi heyətin qanunlara, hərbi anda, nizamnamələrin və əmrlərin tələblərinə riayət etmək ruhunda tərbiyə olunması və hərbi kollektivlərin möhkəmləndirilməsində komandir və rəislərə yardımçı olmalıdırlar. Şərəf məhkəmələri hərbi kollektivlərdə qanunçuluğun və hərbi intizamın qorunmasında mühüm rol oynayır, hərbi qulluqçulara ictimai təsir tədbirləri həlqəsində xüsusi yer tuturlar. Bu təşkilatların fəaliyyətinin əsas prinsipləri ədalətlilik, obyektivlik və şəffaflıqdır. Bəzən şərəf məhkəmələrinin işinə müdaxilə və qəbul edəcəkləri qərarlara təsir göstərmək cəhdləri olur. Bunun qarşısı alınmayanda şərəf məhkəməsi hərbi kollektivin etimadını itirə bilər. Şərəf məhkəmələrinin tərkibinə təcrübəli, nüfuzlu hərbi qulluqçular seçilməlidirlər. Nəzərə almaq lazımdır ki, şərəf məhkəməsi bu və ya digər pozuntuya, eləcə də nalayiq hərəkətə yol vermiş hərbi qulluqçunun məsələsinə baxarkən onun ictimai tənbehə necə reaksiya verdiyi, mənəvi-psixoloji keyfiyyətləri, bu vəziyyətə düşməsinə səbəb olmuş faktorlar və nəhayət, hərbi kollektivin mənafeyindən irəli gələn məqamlar düzgün təhlil edilməlidir. Bəzən qəti tədbir görülməsi ilə nöqsanların aradan qaldırılmasına sonuncu dəfə möhlət verilməsi arasında seçim etmək asan olmur. Belə olduqda hərbi kollektivə xələl gətirməyəcək qərarın qəbul olunmasına zərurət yaranır.

Göründüyü kimi, bu gün hərbi xidmət sahəsində mövcud olan ictimai təşkilatların fəaliyyətində aktual məqamlar var. Bu məqamlar barədə müzakirələr aparmaq, ictimai iş mövzusunun müxtəlif tərəflərini işıqlandırmaq məqsədəuyğundur.

**Yalçın Abbasov**

3_Layout 1 29.09.2017 13:00 Page 1



## ŞƏHİDLƏRİMİZ

# FƏRRUX YÜKSƏKLİYİ ƏTRAFINDA SON DÖYÜŞ...

Şəhidlər haqqında yazı hazırlamaq onların ailələrinin ünvan axtarışları olmadan, döyüşçü yoldaşlarının fikirlərini öyrənmədən, arxiv materiallarını nəzərdən keçirmədən mümkün deyil. Hər dəfə bu mövzuda yeni məqalə üzərində işləyərkən mənəvi cəhətdən nə qədər ağır olsa da, ünsiyyətdə olduğum, əlaqə saxladığım, kömək üçün müraciət etdiyim insanların həssas münasibətini gördükdə, xalqımızın öz şəhidlərinin xatirəsinə nə qədər böyük ehtiram bəslədiyi bir qələm adamı kimi məni ruhlandırır. Bəli, hansı şəhər, ya rayon, qəsəbə, ya da kəndə şəhid ailəsi ünvanına və şəhid məzarına getmişəmsə, yoluma bu ağrı-acıya laqeyd adam çıxmayıb.

Şəhidlər barəsində bir mahnıda belə sözlər var: "Köçüb ürəklərdə qalan oldunuz. Unutmaq olarmı, sizi şəhidlər!". Onlar heç vaxt unudulmadı, xatirələrdə yaşadı və hər zaman anılacaqlar.

Bu yazı şəhid hərbi qulluqçumuz baş leytenant Hüseynov Əmrah Abdülüsüm oğlu haqqındadır. Onun döyüş yolunun son anları barədə təfsilatları aydınlaşdırmaq çətin oldu. Müharibənin gətirdiyi elə dəhşətli dərdlər var ki... Bəzi döyüşlərdə hərbi qulluqçular itkin düşür, meyiti belə tapılmır və ya döyüş meydanında qalır. Bu gün Ə.Hüseynovun ailəsinin ziyarət edəcəyi bir məzar yoxdur. Müharibədə öz əzizini itirəsən, ancaq onu torpağa tapşıra bilməyəsən, son döyüş yeri işğal altında qaldığından, oraya gedə biləcəyin yollar da üzünə bağlı olsun... Bu faciəni ifadə etməyə söz belə acizdir.

Ə.Hüseynov 1954-cü il mayın 25-də qədim yurdumuz Basarkeçərin (Ermənistan Respublikası Vardenis rayonu) Bala Məzrə kəndində dünyaya göz açıb. Bala Məzrə kənd orta məktəbini bitirib. 1971-1976-cı illərdə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) fizika fakültəsində ali təhsil alıb. Fizik, fizika müəllimi ixtisasına yiyələnib. Ə.Hüseynov universitetdə oxuduğu dövrdə orada hərbi kafedra olduğundan, ona ali təhsilini başa çatdırdıqdan sonra leytenant hərbi rütbəsi verilib. O, iki dəfə - Ermənistan və Gürcüstanda hərbi toplanışlarda olub. Növbəti dəfə ona baş leytenant hərbi rütbəsi verilərək ehtiyatda olan zabit kimi hərbi komissarlıqda uçota alınıb.

1976-cı ildən 1988-ci ilin noyabr ayınadək doğma yurdu Bala Məzrədə fizika müəllimi işləyən Ə.Hüseynovun öz el-obasının yeniyetmələrinə təhsil verdiyi illər onun özü üçün bir həyat məktəbi idi. Bir vaxtlar onu yetişdirmiş müəllimlərinin yolunu davam etdirirdi. Müəllimin missiyası şagirdlərə təkcə savad vermək deyil, həm də onları vətənpərvər ruhda tərbiyə etməkdir. O, bu yolda əməyini, bilik və bacarığını əsirgəməyib. Şərəfli müəllim adını həmişə uca tutub. Beləcə, elin, həmyerlilərinin gözündə bir ziyalı kimi ucalıb.

Ə.Hüseynov Bala Məzrə kəndində Siyatel xanımla ailə həyatı qurub. Bu xoşbəxt ailədə üç oğul övladı dünyaya gəlib. Həyatının ilk böyük kədəri 1983-cü ildə atası



Baş leytenant Əmrah Hüseynov

Abdülüsüm Orucovun vəfat etməsi ilə bağlı idi. Onu da qeyd edim ki, Ə.Hüseynovun soyadı babasının adı ilə bağlıdır. Taleyin daha da amansız zərbəsi isə ata ocağından uzaq düşməsi oldu.

1988-ci ildə Dağlıq Qarabağda erməni separatizmi baş qaldırmaqla yanaşı, Ermənistanda azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsinə də başlandı. Əsrlərlə o torpaqlarda yaşamış azərbaycanlılar zaman-zaman haqsızlıqlara, soyqırıma və deportasiyalara məruz qalmışlar. Ötən əsrin 80-ci illərinin sonunda baş verən qanlı hadisələr zamanı isə Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Soydaşlarımız dədə-baba yurdlarından didərgin salınaraq respublikamıza pənah gətirdilər.

Ə.Hüseynov və ailəsi də o vaxt Ermənistandan qaçqın düşən bütün soydaşlarımız kimi sarsıntı və iztirablarla dolu günlər yaşadılar. O, bu gerçəkliklə heç cür barışa bilmirdi. Qeyrətli bir insan kimi bütün vücudu buna qarşı üsyan edirdi, qəlbində düşmənə qarşı nifrət hissi güclənirdi. Qaçqınlıq həyatı onu sevdiyi müəllimlik peşəsindən də uzaq salmışdı. Ailə yerbəyer olanadək bir müddət Tərtər rayonu və Gəncə şəhərində yaşamalı oldu. Sonra Bakıda məskunlaşdılar.

O, 1990-cı ildə aqrar şirkətdə usta, 1991-ci ildən isə Xızı rayonundakı çörək müəssisəsində anbardar işləyib. Əsas diqqəti ailəsinə, doğmalarının qayğılarına yönəldib. Ailənin maddi cəhətdən korluq çəkməməsi üçün var gücü ilə çalışıb.

1992-ci ildə Ə.Hüseynovun həyatında yeni bir mərhələ başladı. O vaxt respublikamızda vəziyyət ağır idi. Ermənistanın hərbi təcavüzünün davam etməsi şəraitində bu dəfə soydaşlarımız respublikamızın ərazisində məcburi köçkünlərə çevrilirdilər. Artıq Xocalı, Şuşa, Laçın və digər onlarla yaşayış məntəqəmiz işğal olunmuşdu. Ön cəbhədə hər gün qanlı döyüşlər gedirdi. O, 1992-ci ilin sentyabr ayında ehtiyatda olan zabit kimi hərbi xidmətə çağırıldıqda heç bir tərəddüd etmədi, Vətən qarşısında borcunu yerinə yetirməyə həvəslə yollandı.

Daxili Qoşunların Komandanının 15 sentyabr 1992-ci il tarixli, 115 nömrəli şəxsi heyət üzrə əmrində, 3650 saylı hərbi hissəyə aid bənddə Suraxanı Rayonu Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı Rayon İdarəsi) tərəfindən ehtiyatdan çıxarılmış baş leytenant Ə.Hüseynovun hərbi hissə komandirinin sərəncamına göndərilməsi barədə qeyd var. 3650 saylı hərbi hissə (1993-cü ilin yanvar ayından 67987 saylı hərbi hissə) Ağdam rayonu ərazisində yerləşirdi. Hərbi hissənin şəxsi heyəti Ağdamın düşmənlə təmas xəttində yerləşən kəndlərinin və bir sıra yüksəkliklərin müdafiəsində dayanır, həmçinin, cəbhənin Ağdam-Əsgəran, habelə Ağdam-Ağdərə istiqamətləri üzrə ermənilərin nəzarətində olan ərazilərin azad edilməsi uğrunda döyüşlərə cəlb olunurdu.

Daxili Qoşunların Komandanının 27 oktyabr 1992-ci il tarixli, 175 nömrəli şəxsi heyət üzrə digər əmri ilə baş leytenant Ə.Hüseynov 3650 saylı hərbi hissə komandirinin sərəncamından çıxarılaraq, 2-ci motoatıcı bölük komandirinin texniki hissə üzrə müavini vəzifəsinə təyin edilib. Onun döyüş yolu Ağdamın düşmənin hərbi təcavüzünə məruz qalan ayrı-ayrı kəndlərindən keçib. Erməni xislətinə yaxşı bələd olan zabit ön cəbhədə düşmənin vəhşiliklərinin şahidi olub. O, bir qətiyyətli zabit kimi tabeliyindəki şəxsi heyəti düşməndən qisas almağa ruhlandırıb, döyüş tapşırıqlarının yerinə yetirilməsində öz iradəsi və əzmi ilə şəxsi nümunə göstərib.

1993-cü ilin yanvar ayında Əsgəran istiqamətində strateji yüksəklik olan Fərrux və ətraf ərazilər uğrunda şiddətli döyüşlər baş verdi. O ərəfədə Fərruxun ətəyindəki Xramord (Pirlər) kəndinə düşmən nəzarəti itirsə də, yüksəklik və onun yaxın ətrafında möhkəm mövqe tutmuşdu. Bu yüksəklik təbii istehkam olmaqla yanaşı, böyük bir ərazini atəş və nəzarət altında saxlamağa imkan verirdi. Həmin yüksəklikdən Ağdam-ətrafı kəndlər və Ağdam şəhərinin özü müntəzəm olaraq artilleriya atəşinə tutulurdu.

1993-cü il yanvarın 25-dən 26-na keçən gecə yüksəkliyin Əsgəran-Xanabad istiqamətinə doğru yamacına bitişik Armudluq adlanan əraziyə hücum edən qruplardan birində baş leytenant Ə.Hüseynov da vardı. Bu, onun son döyüşü oldu.

Daxili Qoşunların veteranı, ehtiyatda olan mayor Tahir Ağayev həmin döyüşü belə xatırladı: "26 yanvar 1993-cü il tarixdə səhərə yaxın Fərrux yüksəkliyinin Əsgəran-Xanabad səmti üzrə yamacından başlayan Armudluq adlı ərazidə erməni postlarına yaxınlaşmışdıq. Bu döyüşdə üç qrup iştirak edirdi. Baş leytenant Ə.Hüseynovla bir qrupda idik. Qəfil açılan atəş səsinə düşmən duyuq düşərək, bizim hücuma keçdiyimizi aşkarladı. Şiddətli atışma başladı. Müxtəlif çaplı silahlardan açılan atəş nəticəsində yaralılarımız vardı. Bu, qeyri-bərabər döyüş idi. Ermənilər orada kifayət qədər canlı qüvvə cəmləşdirmişdi. Düşmənə Xanabad tərəfdən əlavə kömək də gəldi. Geri çəkilməyə məcbur olduq. Bu zaman mən pulemyot gülləsindən sağ budumdan yaralandım. Əmrah və Azər adlı bir əsgərimiz məni çıxararkən atəşlə vuruldular. Başından yaralanan əsgər dərhal keçindi. Əmrahın bədəninin harasından yaralandığını dəqiq görmədim, ancaq gözümün qabağında can verdi. Var gücümü toparlayıb bir təhər sürünərək oradan çıxmağa cəhd etdim. Ərazidən bir qədər uzaqlaşdım, sonra huşumu itirdim. Mən bir neçə döyüşçümüzün köməyi ilə döyüş meydanından çıxarılmışam. Məni qospitala apardılar. O anları həmişə ürək ağrısı ilə xatırlayıram. Silahdaşlarımızın meyitlərini çıxartmaq mümkün olmadı. Müharibənin bu üzü də var, dəhşətli bir haldır. Əmrah cəsur və ləyaqətli zabit idi. Döyüş sınaqlarında da bunu isbat etdi".



Şəkildə baş leytenant Ə.Hüseynov öndə sağ tərəfdə. Ağdam rayonu.

Baş leytenant Ə.Hüseynovun döyüş şəraitində həlak olması faktı 1993-cü il 29 oktyabr tarixində rəsmiləşdirilib. Belə ki, 29.10.1993-cü il tarixli ölüm şəhadətnaməsi tərtib olunub və ailəsinə təqdim edilib. Sənəddə onun ölüm tarixi 26 yanvar 1993-cü il göstərilib.

1992-1994-cü illərdə döyüş əməliyyatları zamanı hərbi qulluqçuların şəhid olmaları haqqında Daxili Qoşunlarda tərtib olunmuş 04.02.1998-ci il tarixli protokoldan çıxarışda da baş leytenant Ə.Hüseynovun 26.01.1993-cü il tarixdə həlak olduğu qeyd edilib.

Daxili Qoşunların Komandanının 23.12.2000-ci il tarixli, 84 nömrəli əmrilə baş leytenant Ə.Hüseynov 26.01.1993-cü il tarixdə döyüş əməliyyatında həlak olması ilə əlaqədar həmin tarixdən qoşunların şəxsi heyətinin siyahısından çıxarılıb.

1993-cü ilin yanvarından keçən 24 ildən çox müddət ərzində baş leytenant Ə.Hüseynovun şəhid olması barədə sənədlərdə heç bir dəyişiklik edilməyib. Onun taleyi barədə bu günədək hansısa yeni fakt qeydə alınmayıb.

Şəhidin ailəsinə baş çəkdim. Həyat yoldaşı Siyatel xanım, oğulları Emin və Natiqlə görüşdüm, qardaşları İlqar Orucov və Knyaz Orucovla isə telefonla danışdım. Qeyd edim ki, şəhidin anası Simuzər Orucova 2007-ci ildə dünyasını dəyişib. Ümumilikdə Simuzər xanım və Abdülüsüm kişinin çoxuşaqlı ailəsində Vətən və millət təəssübkeşi olan övladlar yetişib. Baş leytenant Ə.Hüseynovun yoxluğu onun əzizləri üçün böyük kədərdir.

Həyat yoldaşı Siyatel xanım həyatın amansız zərbəsi qarşısında büdrəməyib, ata həsrətli övladlarına qayğısını, onların cəmiyyət üçün layiqli vətəndaş kimi yetişməsində əməyini əsirgəməyib. O, Hövsanda bir neçə orta məktəbdə bufetdə işləyib. Ailəyə müvafiq müavinət də təyin edilib. Oğulları və bir qız nəvəsi onun həyatının fərəhləridir.

Şəhidin övladları arasında böyüyü Emindir. Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib. Daxili Qoşunların 17072 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Fövqəladə Hallar Nazirliyində Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Sadıq Dadaşov adına Elmi-Tədqiqat Layihə Konstruktor İnşaat Materialları İnstitutunda böyük elmi işçi işləyir. Evlidir. Elşən də Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunudur. "Gilan" Tekstil Parkında çalışır. Subaydır. Natiq isə Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təhsil alıb, Daxili Qoşunların 67987 saylı hərbi hissəsində təlim toplanışında olub. O, polis kapitanıdır, evlidir, bir qızı var, adı İncidir.

Siyatel xanım həyat yoldaşı haqqında xatirələrini danışdı. Onun səmimi, xoşxasiyyət, geniş dünyagörüşünə malik, Vətənini, millətini ürəkdən sevən, ailəsinə bağlı bir insan olduğunu vurğuladı. Ön cəbhədən göndərdiyi məktubları mənə göstərərək bildirdi ki, o, döyüşlərdə odun-alovun içində belə, həmişə ailəsini düşünüb, ailənin qayğıları ilə maraqlanıb. Onun qeyri-adi qurub-yaratmaq enerjisi, həyatsevərliyi olub.

Şəhidin qardaşı İlqar Orucov da Daxili Qoşunların sıralarında zabit kimi xidmət edib, hazırda pensiyadadır. Digər qardaşı Knyaz Orucov isə polis sıralarında zabit kimi xidmət edərək pensiyaya çıxıb. Onlar qardaşlarının həm müəllim, həm də zabit kimi fədakarlığını qeyd etdilər, Vətən naminə çətin sınaqlara atıldığını söylədilər.

Mənə bildirildi ki, baş leytenant Ə.Hüseynovun son döyüşdən sonra sağ qalma ehtimalı da nəzərdən keçirilib, lakin müvafiq qurumlar xətti ilə aparılan axtarışlar heç bir nəticə verməyib.

Bənövşə Eyyubovanın "Qızıl qan" adlı kitabında şəhid zabit haqqında yazı və şəkli dərc olunub. Bu yazıda şəhidin son döyüş yeri Xramord (Pirlər) kəndi göstərilərək qeyri-dəqiqliyə yol verilib.

Şəhid zabitin xatirəsinin əbədiləşdirilməsi yönündə işlərin görülməsi xeyirxah addım olardı.

Baş leytenant Ə.Hüseynov cismən barıt qoxulu Vətən torpağına qovuşdu, ruhu əbədiyyət zirvəsinə ucaldı.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ QULLUQÇULARIN PEŞƏ VƏRDİŞLƏRİ VƏ DÖYÜŞ QABİLİYYƏTİ TƏKMİLLƏŞDİRİLİR

***99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti qarşıda duran istənilən tapşırıqları yerinə yetirməyə hər an hazırdır. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Yaxın günlərdə hərbi hissədə olarkən dəstənin şəxsi heyətinin nümunəvi xidmət apardığının bir daha şahidi oldum.***

Dəstə komandiri polkovnik-leytenant Zəfər Yusibov döyüş təliminin təşkili və keçirilməsi zamanı bölmələrin hərbi qulluqçularının qarşısında duran vəzifələrdən söz açdı. Şəxsi heyətin gündəlik fəaliyyətinin rəhbər sənədlərin tələblərinə əsasən təşkil edildiyini bildirdi. Qeyd etdi ki, təsdiq olunmuş plana əsasən keçirilən məşğələlər dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Öz hərbi peşəsini və vəzifə borclarını dərindən öyrənmək, fərdi qaydada, heyət, yarımqrup, qrup, dəstə və qoşun elementlərinin tərkibində üzərinə düşən tapşırıqların yerinə yetirilməsində əzmkar praktiki vərdişlərin əldə edilməsini əsas istiqamət kimi qiymətləndirdi.

Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji keyfiyyətləri təkmilləşdirilir.

Məşğələlərdə şəxsi heyətə təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizamın və sayıqlığın təkmilləşdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi tədris olunur. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, fəal və qətiyyətli fəaliyyətin göstərilməsi də xüsusilə diqqət mərkəzində saxlanılır.

Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Yaşayış məntəqəsində və çoxmərtəbəli binalarda döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı çevik və peşəkar fəaliyyət göstərilməsi üçün alpinist qülləsindən geniş istifadə olunur. Təlimin



əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: "Alpinist qülləsində bina axtarışı üçün obyektə daxil olmaq, qısa müddətdə helikopter vasitəsilə əməliyyat rayonuna çatmaq, təyin olunmuş əraziyə enmək, təhlükəsizlik tədbirlərinə riayət etmək, qarşıya çıxmış hər hansı bir maneənin asanlıqla və qısa müddətdə aradan qaldırılması məşq etdirilir. Bu qurğuda məşğələlərin keçirilməsi zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilir. Cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə-hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsinə xidmət edir".

Polkovnik-leytenant Z.Yusibov həmçinin hazırda Giləzi rayon istiqamətində ANAMA təşkilatının əməkdaşları ilə birlikdə dəstənin istehkam yarımqrupu da daxil olmaqla, 50 nəfərdən ibarət şəxsi heyətin gündəlik olaraq Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində baş vermiş partlama zamanı əraziyə səpələnmiş mərmilərin axtarılıb, tapılması və daşınması tədbirinə cəlb olunduğunu nəzərə çatdırdı. Bu tədbirdə yüksək nizam-intizam və peşəkarlıq nümayiş etdirən şəxsi heyətin xidməti ANAMA təşkilatının rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir.

Hərbi qulluqçularla iş zamanı fərdi yanaşma prinsipini əsas götürən dəstə komandiri tabeliyindəki hərbçilərin şəxsi həyatında olan problemlərin aradan qaldırılmasında əlindən gələni əsirgəmir: "Hər şeydən öncə, şəxsi heyətə nümunə olaraq, üzərimə düşən vəzifələri ləyaqətlə yerinə yetirməyə çalışıram. Hərbi qulluqçulara hər bir fəaliyyətdən əvvəl görəcəkləri iş fərdi və ya bölmə tərkibində geniş şəkildə izah edilir, yaşanmış təcrübələrdən nümunələr göstərilir. Gündəlik xidmətlə yanaşı, şəxsi heyətin sosial həyat fəaliyyətlərində fərdi qaydada köməklik göstərilir".

O, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində tərbiyə işləri üzrə müavin mayor Rüfət Əliyevin böyük rolu olduğunu vurğuladı. Bildirdi ki, o, hərbi qulluqçuların ruh yüksəkliyinin artırılması istiqamətində onlarla vaxtaşırı fərdi söhbətlər aparır. Atəş təminatı qrupunun komandiri baş leytenant Anar Mahmudov, xüsusi həmlə qrupunun komandiri baş leytenant Elnur Qasımov, yarımqrup komandiri gizir Şənlik Fətəliyev, dəstənin başçavuşu gizir Yunus Mahmudov dəstənin digər nümunəvi hərbi qulluqçuların adlarını çəkərək, onların gündəlik fəaliyyətdə fərqləndiklərini xüsusi olaraq vurğuladı.

**leytenant N.Ağayeva**

4_Layout 1 29.09.2017 13:13 Page 1





# ŞƏXSİ HEYƏT TAPŞIRIQLARI DƏQİQLİKLƏ YERİNƏ YETİRİR





16073 saylı hərbi hissənin komendant bölüyünün şəxsi heyəti hər zaman nümunəvi xidməti və sayıqlığı ilə seçilir.

Qarovul xidməti böyük məsuliyyət və diqqət tələb etdiyindən, nizam-intizamı, təlim-tərbiyəsi ilə fərqlənən, sağlamlığı imkan verən hərbi qulluqçular bu xidmətə cəlb olunurlar. Hərbi hissənin döyüş bayrağının, hərbi obyektlərin etibarlı mühafizə və müdafiəsini təşkil edən bölük gündəlik olaraq xidmətə cəlb olunur.

Bölük komandirinin müavini baş leytenant Rabil Əmirxanov bildirir ki, xidmət “Qarnizon və qarovul xidmətləri nizamnaməsi”nin tələblərinə əsasən təşkil edilir. Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların seçilməsi xüsusilə nəzarətdə saxlanılır. Postların vaxtlı-vaxtında dəyişdirilməsinə, silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Xidmətə cəlb edilməmişdən öncə müvafiq plana əsasən bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: “Ümumiyyətlə, xidmətə cəlb edilməmişdən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları ciddi nəzarətdə saxlanılır. Hərbi hissənin psixoloqu leytenant Kəmalə Bayramova da şəxsi heyətin xidmətə hazırlanmasında yaxından iştirak edir”.

Aparılan söhbətlərin olduqca əhəmiyyətli olduğunu qeyd edən baş leytenant R.Əmirxanov söylədi ki, bu zaman problemi olan hərbi qulluqçular aşkarlanaraq dərhal xidmətdən kənarlaşdırılırlar.

Şəxsi heyətin asudə vaxtlarının səmərəli təşkil olunması da bölük komandiri tərəfindən diqqət mərkəzində saxlanılır. Demək olar ki, şəhərcikdə hərbi qulluqçuların istirahəti üçün lazımi şərait yaradılıb. Burada müxtəlif mətbuat orqanları mütaliə olunur, stolüstü oyunlar keçirilir, qulaqcıqlar vasitəsilə radio dinlənilir.

Həmçinin şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, yoldaşlıq münasibətlərinin qorunub saxlanılması, eləcə də döyüşə hazırlıq səviyyəsinin daim yüksəldilməsi məqsədilə tərbiyə işi keyfiyyətlə həyata keçirilir. Baş leytenant R.Əmirxanov bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Raqif Haqverdiyevin fəaliyyətinin xüsusilə diqqətəlayiq olduğunu vurğuladı.

Bir sözlə, şəxsi heyət qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**baş leytenant**
**X.Hacızadə**

# YOLLARDA TƏHLÜKƏSİZLİYİN QORUNMASINDA SVETAFORUN ROLU

***“Bütün yollar Romaya aparır” ifadəsinin hansı anlamda işlədildiyi bəlkə də çoxlarına məlum deyil. Bu fikir dünyada ilk yol hərəkəti qaydasının müəyyənləşməsi ilə yaranıb. İlk dəfə yol eramızdan 312 il əvvəl Roma imperiyasında salınıb və ona Sezar Api Klavdi adı verilib. O zamanlar Romaya aparan yolların örtüyü daşdan olmaqla, onun kənarında hər kilometrdən bir daş dirək qoyulub. Tarixi mənbələr göstərir ki, Romada yaranan yol mədəniyyəti, yol hərəkəti qaydaları zaman-zaman təkmilləşib. Yol hərəkətinin sadələşməsi məqsədilə yollar tarix boyu təkmilləşdirilib, müvafiq örtük və digər elementlərlə təchiz edilib. Demək ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi problemi hələ qədimdən mövcuddur. Hazırda da yolların təhlükəsizliyi ilə bağlı problemlər var.***

Azərbaycanda yol hərəkətinin təhlükəsizliyi milli təhlükəsizlik konsepsiyasına daxil edilib. Dünyada baş verən yol-nəqliyyat hadisələri o qədər geniş vüsət alıb ki, müharibələr zamanı baş verən insan itkilərinə bərabərləşib. Ona görə də bu məsələ BMT-nin proqramına da daxil edilib. Azərbaycan da daxil olmaqla, bütün dünya ölkələri çalışır ki, yol-nəqliyyat hadisələri zamanı baş verə biləcək itkilərin sayını minimuma endirə bilsinlər.

Ümumiyyətlə, dünyada yol-nəqliyyat hadisələri zamanı il ərzində 1 milyon 200 minə qədər insan həlak olur. Yollarda quraşdırılan svetaforlar da yüz ildən çoxdur ki, insan həyatının xilas olunmasına xidmət edir.

İlk elektrik svetaforu 103 il bundan əvvəl, 1914-cü il avqustun 5-də ixtira olunub. Təcrübəli sürücü olmasından və ya avtomobili idarə etmək üçün sürücülük vəsiqəsinin yeni alınmasından asılı olmayaraq, svetaforun tarixi haqqında maraqlı məlumatlar əldə etmək çox faydalı ola bilər.

### İlk svetafor necə yaranıb?

Təsəvvür edin ki, svetafor olmasaydı yollarda nə baş verərdi? Bu faydalı ixtira üçün kimə təşəkkür etməliyik?

Tarixdə ilk svetafor 1868-ci ilin dekabrında Londonda, parlament binası yaxınlığında quraşdırılıb. Bu ağıllı qurğunu dəmiryol nəqliyyatının hərəkətini nizamlayan cihazlarla, yəni semaforlarla (dəmiryollarında quraşdırılan mexaniki siqnallı qaldırma vasitəsi) məşğul olan Con Pik Nayt adlı bir şəxs yaradıb.

Bu, iki semafor oxundan ibarət sadə konstruksiya olub. İlk svetafor əl ilə idarə olunurdu. Üfüqi formada olan ox dayanmanı bildirirdi. 45 dərəcə bucaq altında yuxarı qaldırıldıqda isə ox son dərəcə ehtiyatlı hərəkət etmək lazım olduğuna işarə edirdi. Gecələr oxlar müxtəlif rəngli qaz fənərlərilə əvəz olunurdu. Qırmızı işıq dayanmaq, yaşıl işıq isə hərəkətin davam etdirilməsi demək idi.

O dövrün svetaforlarının əsas məqsədi, yolun hərəkət hissəsindən keçən piyadaların işini asanlaşdırmaq və təhlükəsizliyini təmin etməkdən ibarət olub.

### Elektrik svetafor nə zaman yaradılıb?

1912-ci ildə Amerikada Yuta ştatının sakini Lester Vayru sayəsində elektrik şəbəkəsindən enerji almaqla çalışan ilk svetafor meydana gəlib. Lakin həmin svetafor patentləşdirilməyib. Yalnız iki il sonra Klivlenddən olan Ceyms Xoq adlı mühəndis müasir svetaforu xatırladan qurğunu yaradıb. O zamankı bu yenilikdən dərhal sonra Klivlenddə yüz beşinci küçə ilə Evklid prospektinin kəsişməsində yol hərəkətini tənzimləyən dörd belə svetafor quraşdırılıb. İşıq siqnallarından başqa onlar səsli siqnal da verə bilirdilər. Svetafor yaxında tikilən şüşə köşkdən idarə olunurdu. Orada daim svetaforun fəaliyyətinə cavabdeh olan növbətçi keşik çəkirdi.

Üçrəngli svetaforlar isə 1920-ci ildə yaradılıb. Lakin dərhal da Nyu-York və Detroyt şəhərlərinin küçələrini bəzəyib. Onların yaradıcısı isə Con Xarris və Uilyam Potts hesab olunur.

Avropada ilk svetafor Fransada quraşdırılıb. Bu, 1922-ci ildə baş verib. O zamandan etibarən Paris sakinləri yollarda bu unikal qurğuların fəaliyyəti əsasında hərəkət etməyə başlayıblar. İngiltərədə isə svetafor 1927-ci ildə quraşdırılıb.

SSRİ-də ilk svetafor Leninqradda (indiki Sankt-Peterburq şəhərində) quraşdırılıb. Bu, 1930-cu ilin yanvarında baş verib və Rusiyanın yol hərəkəti tarixində əhəmiyyətli hadisəyə çevrilib.

Gürcüstanın paytaxtı Tbilisidə ilk svetafor 1932-ci ildə Rustaveli prospekti ilə Aleksandr Çavçavadze küçəsinin kəsişməsində quraşdırılıb.

Belarusda ilk svetafor 1938-ci ildə paytaxt Minskin Bobruysk və Kirov küçələrinin kəsişməsində quraşdırılıb.

Ötən əsrin 20-ci illərinin ortalarında demək olar ki, müxtəlif konstruksiyalı 50 növlü svetafor ixtira olunub. “Attica Traffic Signal Company” şirkətinin ixtirasını xüsusi qeyd etməyə dəyər. Onlar tərəfindən hazırlanan sistem lampaların yanması yolu ilə starta qədər əks hesablama apara bilirdi. Yeri gəlmişkən, bu gün belə sxemdən avtoidmanda fəal istifadə olunur.




### Müasir svetafor necə düzəldilib?

Əgər düşünürsünüzsə ki, svetafor vaxtaşırı olaraq işıq tablosunun dəyişdiyi sadə konstruksiyadır, onda böyük səhv edirsiniz. Müasir svetaforlar çox mürəkkəb bir qurğudur. Bura çıraqları olan korpus, yol siqnalizasiyası kontrolleri, nəqliyyat vasitələrinin xüsusi sensorları daxildir.

Bu gün svetaforlar avtomobil yolları boyunca və əsasən yol kəsişmələrində xüsusi dirək və sütunlarda quraşdırılır.

Bu səssiz hərəkət tənzimləyicisi kompyuter tərəfindən idarə olunur, hansı ki, hərəkəti daim dəyişən yol vəziyyətinə uyğun olaraq müstəqil müəyyən edir və sinxronlaşdırır. Sensorlar dərhal nəqliyyat vasitələrini qeydə alır, sanki onlara hamıya məlum olan işıq siqnallarının köməyi ilə hərəkət ritmi verir.

Böyük şəhər və meqapolislərdə svetaforlar şəhərin bütün nəqliyyat vasitələrinin hərəkətini idarə edən avtomatlaşdırılmış sistemlərdə birləşir.

Belə sistemlər olduqca mürəkkəb effektlər yarada bilir, məsələn, “yaşıl dalğa”.

Hərəkəti idarə edən bu nizamlayıcı vasitənin gələcək inkişafı artıq süni intellektin inkişafı sahəsinin öhdəsinə düşür. Vaxt gələcək nəqliyyat axınlarının bütün tənzimlənməsi prosesini insan müdaxiləsi olmadan məhz svetafor həyata keçirəcək.

### Maraqlı faktlar...

Rusiyanın Novosibirsk şəhərində də svetaforın şərəfinə abidə var. Heykəltəraşlıq kompozisiyası svetafor və onu salamlayan avtomobil müfəttişindən ibarətdir.

Yaponiyada uzun müddət svetaforlarda yaşıl işığın əvəzinə göy işıqdan istifadə olunub. Lakin aparılan tədqiqatlar göstərib ki, insan gözü göy rəngi yaşılla müqayisədə daha pis qəbul edir. Buna görə də bu gün gündoğan ölkənin küçələrində elektron növbətçi vəzifəsini klassik svetaforlar yerinə yetirir.

Dünyada ən böyük svetafor Londondadır. Kanar körpüsü yaxınlığındakı meydanda yerləşən bu abidə svetafor ağacı formasındadır. Bu konstruksiya heç bir hərəkəti nizamlamır, sadəcə üç müxtəlif rəngli işığın yol xaosu üzərindəki qələbəsini simvolizə edir. Cəmi bir kompyuter vasitəsi ilə idarə olunan və 75 cihazdan ibarət bu svetafor-abidənin hündürlüyü 8 metrdir.

Almaniyanın paytaxtı da, həmçinin, öz svetafor mühiti ilə seçilir. Berlində adi iki-üç siqnal əvəzinə 13 siqnalla işarə verən nizamlayıcı qurğu diqqət çəkir. Əlbəttə, bu cür svetaforun verdiyi işarələrlə istiqamət almaq həm sürücülər, həm də piyadalar üçün çox çətindir.

Berlindəki, svetaforlarda şlyapada olan adamcığaz təsviri yerləşir. Onun hətta adı da var - Ampelman. Almaniyanın paytaxtında Ampelmanın təsvir edildiyi suvenirlər də satılır. Almaniya birləşdikdən sonra svetaforlar dəyişdirilərkən, adamcığazın təsviri götürülür. Lakin bu, Berlin sakinləri arasında hiddət dalğası doğurduğundan, Ampelmanı geri qaytarırlar. Drezdendə hətta onun üçün rəfiqə də düşünüblər. Bu, sarafanda və hörükləri olan qız şəklindəki svetafor adamcığaz obrazıdır.

Şimali Koreyada svetafor bir neçə il əvvəl quraşdırılıb. Belə ki, əvvəllər bu elektron qurğunun vəzifəsini tənzimləyici-qızlar yerinə yetirirdilər. Buna bənzər hadisəyə dünyanın heç bir yerində rast gəlinməyib. Elə bu səbəbdən də yolda vəziyyəti tənzimləyən koreyalı xanımlar Koreya Xalq Demokratik Respublikasının diqqətəlayiq özünəməxsus özəlliklərindən biri hesab edilib.

Braziliyada, Rio-de-Janeyroda kriminoloji vəziyyət həyəcan doğurduğundan, axşam saat 10-dan səhər saat 5-ə qədər sürücülər mümkün soyğunçuluqdan qaçmaq üçün qırmızı işıqda keçə bilərlər.

Ola bilsin, kimsə svetaforun məhdudiyyət olduğunu fikirləşir. Lakin düşünün, bu yüz üç il ərzində o nə qədər insan həyatını xilas edib.

Bu tənzimləyicisiz hərəkət qarma-qarışıq və son dərəcə təhlükəli ola bilərdi. Onun yanından keçərkən, təşəkkür etməyi unutmayın…

Bir daha xatırladırıq ki, svetaforun qadağanedici siqnalı yalnız qırmızı deyil, həm də sarıdır. Sürücülər və piyadalar ancaq yaşıl işıqda hərəkət edə bilər. Bu ən sadə qaydanı unutmayın, çünki yol iştirakçısı olduğunuz zaman sizin təhlükəsizliyinizi o təmin edir.

### Svetaforun növləri

Ənənəvi olaraq svetaforu vizual siqnalizasiya qurğusuna aid edirlər. Sirr deyil ki, bir neçə növ svetafor var.

Avtomobil svetaforu: bu tip qurğuların ən geniş yayılmış növüdür. Bu da onunla izah olunur ki, avtomobil ən məşhur nəqliyyat növüdür. Qurğu üç rəngdən ibarətdir: qırmızı, sarı və yaşıl. Həmçinin, ikiseksiyalı xüsusi svetaforlar da mövcuddur: qırmızı və yaşıl rəngli. Bu qurğular öz funksiyalarını yol hərəkətinin ən inkişaf etdiyi xüsusi mürəkkəb yol hissələrində yerinə yetirir.

Oxşəkilli svetaforlar: bu qurğular standart rəngli işıqlardan başqa, xüsusi ox seksiyalarıyla da təchiz ediliblər. Onlar avtomobilin hərəkətini nizama salmaq üçün nəzərdə tutulublar.

Sayrışan svetafor: hardasa, dəmir yolu keçidlərində quraşdırılan qurğulara bənzəyir. Belə qurğular adətən təhlükəli yol hissələrində tətbiq edilir. Məsələn, yolun hərəkət hissəsi ilə tramvay xətlərinin kəsişmələri, uçuş-eniş zolaqları və sair.

Tramvay svetaforları: tramvayların hərəkətini nizama salırlar.

Çay svetaforları: çay gəmilərinin hərəkətini nizama salırlar.

Dəmir yolu svetaforları: qatarların və elektrik qatarlarının hərəkətini nizama salırlar.

Velosiped svetaforları: velosipedçilərin hərəkətini tənzimləyirlər.

İdman svetaforları: avtomobil idmanında geniş tətbiq edilir.

Piyada svetaforları: yolun hərəkət hissəsindən keçən piyadaların istiqamətini nizama salırlar.

Qeyd etmək lazımdır ki, son zamanlar bir çox svetaforlar, əsasən də piyada və avtomobillər üçün nəzərdə tutulanları xüsusi taymerlərlə təchiz edilir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonu : (012) 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**